# Azərbaycan Respublikası Auditorlar Palatasının 2016-cı il üzrə iş planının 6.4-cü “Auditorlar Palatasının fəaliyyətinə dair tədbirlərin KİV-də işıqlandırılmasının təşkili” bəndinin icrası ilə əlaqədar

# H E S A B A T

Azərbaycan Respublıkası Auditorlar Palatasının 2016-cı il üzrə iş planının 6.4-cü “Auditorlar Palatasının fəaliyyətinə dair tədbirlərin KİV-də işiqlandırılmasının təşkili” bəndinin icrası icrası ilə əlaqədar olaraq, aşağıdakı işlər həyata keçirilmişdir:

- “**Məcburi auditdən yayınmanın qarşısının alınması ilə əlaqədar əlavə tədbirlər barədə”** 2016-c il 23 avqust tarixində Sərəncam verilmiş, işçi qrupu yaradılmış və Məcburi auditdən keçməyən təsərrüfat subyektlərinə müraciət məktubu hazırlanaraq, həmin müraciət Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən SMS vasitəsi ilə təsərrüfat subyektlərinə göndərilmişdir.
- **“Məcburi auditdən yayınmanın qarşısının alınması ilə əlaqədar”** video reklam çarxı hazırlanaraq, Palatanın internet saytında xüsusi bölmədə yerləşdirilmişdir. Bununla yanaşı həmin video çarx “İctimai TV”-də mütəmadi olaraq işıqlandırılmışdır.
- Auditorlar Palatasının Sədri, İqtisad elmləri doktoru, professor Vahid Novruzovun 2016-cı il 05 aprel tarixində **“Auditor xidməti Azərbaycanın iqtisadi qüdrətinin möhkəmləndirilməsində mühüm rol oynayır”** mövzusunda məqaləsi “RESPUBLİKA” qəzetində dərc olunmuşdur.
- **“Müasir şəraitdə auditin tənzimlənməsinin aktual problemləri”** mövzusunda keçirilmiş konfrans haqqında geniş material “XALQ” qəzetində dərc olunmuşdur.
- Kadr hazırlığı, Akkreditasiya və Beynəlxalq əlaqələr idarəsinin rəisi S.Gülməmmədov tərəfindən 2016-ci il 22 aprel tarixində hazırlanmış “**2016-cı ilin 05-06 aprel tarixlərində Bakı şəhərində Azərbaycan Respublikası Auditorlar Palatasının 20 illik yubileyinə həsr olunmuş tədbir və «Müasir şəraitdə auditin tənzimlənməsinin aktual problemləri”** mövzusunda keçirilmiş beynəlxalq elmi-praktik konfrans barədə material “İQTİSADİYYAT” qəzetində dərc olunmuşdur**.**
- Aparatın rəhbəri Q.Bayramov tərəfindən 2016-ci 06 may tarixində hazırlanmış “**Azərbaycan auditi 2015-ci ildə**” adlı məqalə “İQTİSADİYYAT” qəzetində dərc olunmuşdur.
- 2016-cı il 15 yanvar tarixində Azərbaycan Respublikasının Auditorlar Palatası və Qafqaz Universiteti arasında ƏMƏKDAŞLIQ SAZİŞİ imzalanmışdır. Həmin tədbirdən hazırlanmış material Palatanın internet səhifəsində yerləşdirilmişdir.
- Auditorlar Palatasında “Müasir şəraitdə auditin əsas vəzifələri” mövzusunda 2016-cı il 25 fevral tarixində dəyirmi masa keçirilmişdir. Həmin tədbirdən hazırlanmış material Palatanın internet səhifəsində yerləşdirilmişdir.
- 2016-cı il 17-18 mart tarixlərində Varşava şəhərində Dünya Bankının “Maliyyə hesabatalarına tələblər:tələblərin müəyyən edilməsi və yerləşdirilməsi” mövzusunda beynəlxalq tədbir keçirilmişdir. Həmin tədbirdən hazırlanmış material Palatanın internet səhifəsində yerləşdirilmişdir.

- 2016-cı ili 05-06 aprel tarixlərində Auditorlar Palatasının 20 illik yubileyinə həsr olunmuş “Müasir şəraitdə auditin tənzimlənməsinin aktual problemləri” mövzsunda beynəlxalq elmi-praktik konfrans keçirilmişdir. Həmin tədbirdən hazırlanmış material Palatanın internet səhifəsində yerləşdirilmişdir.
- 2016-cı il 26-28 aprel tarixlərində Vyana şəhərində “Maliyyə məlumatları: inkişaf sürətləndirmənin əsas amili kimi” mövzusunda konfrans keçirilmişdir. Həmin tədbirdən hazırlanmış material Palatanın internet səhifəsində yerləşdirilmişdir.
- 2016-cı il 17-18 may tarixlərində Auditorlar Palatasında “Maliyyə Hesabatlarının Beynəlxalq Standartlara uyğun hazırlanması” və “Firmadaxili standartların tərtibinə dair metodik göstərişin şərhi” mövzularında təlim keçirilmişdir. Həmin tədbirdən hazırlanmış material Palatanın internet səhifəsində yerləşdirilmişdir.
- 2016-cı il 20-21 may tarixlərində Tbilisi “20 illik peşəkar inkişaf: Avropa inteqrasiyası və Peşənin problemləri” mövzsunda beynəlxalq elmi-praktik konfrans keçirilmişdir. Həmin tədbirdən hazırlanmış material Palatanın internet səhifəsində yerləşdirilmişdir.
- 2016-cı il 16-17 iyun tarixlərində Kişinyov şəhərində “Mühasibat uçotu və audit peşəsinin problemləri və imkanları: dünya təcrübəsi və həlli yollar” mövzusunda konfrans keçirilmişdir. Həmin tədbirdən hazırlanmış material Palatanın internet səhifəsində yerləşdirilmişdir.
- 2016-cı il 28 iyun tarixində “Korrupssiya ilə mübarizədə və şəffaflığın artırılmasında auditorların qarşısında duran vəzifələr” mövzusunda dəyirmi masa keçirilmişdir. Həmin tədbirdən hazırlanmış material Palatanın internet səhifəsində yerləşdirilmişdir.
- 2016-cı il 5 avqust tarixində “İqtisadi islahatların sürətləndirilməsi ilə əlaqədar qəbul edilmiş normativ hüquqi aktların auditorlar və müvafiq qurumlar qarşısında yaratdığı öhdəliklər” mövzusunda seminar-müşavirə keçirilmişdir. Həmin tədbirdən hazırlanmış material Palatanın internet səhifəsində yerləşdirilmişdir.
- 2016-cı il 15 avqust tarixində Azərbaycan Respublikası Auditorlar Palatasının üzvü, sərbəst auditor Soltanov Qulu Mehbalı oğlu barədə “RESPUBLİKA” qəzetində məqalə dərc etdirilmişdir.
- 2016-cı il 12 oktyabr tarixində Azərbaycan Respublikası Auditorlar Palatasının nümayəndə heyəti Monteneqro Respublikasının paytaxtı Podqoresta və Belarus Respublikasının paytaxtı Minsk şəhərlərində işgüzar səfərdə olmuşlar. Həmin tədbirdən hazırlanmış material Palatanın internet səhifəsində yerləşdirilmişdir.
- 2016-cı il 18 oktyabr tarixində Auditorlar Palatasının Beynəlxalq Əlaqələr üzrə Komitəsinin sədri Lamiyə Bayramova Belçikada işgüzar səfərdə olmuşdur. Həmin tədbirdən hazırlanmış material Palatanın internet səhifəsində yerləşdirilmişdir.
- “Auditə dair reklam xarakterli materialların KİV-də yerləşdirilməsi” yarımbəndinə uyğun olaraq, mütəmadi olaraq, “Auditorların ixtisasartırma” kursları, “Daxili audit” kursları, “Mühasibat uçotu” kursları, dəyirmi masalar və seminarlar haqqında elanlar Palatanın saytında yerləşdirilir.

**Qeyd edilənləri nəzərə alaraq, Auditorlar Palatasının fəaliyyətinə dair tədbirlərin işıqlandırılması məqsədilə aşağıdakı tövsiyələrin həyata keçirilməsi məqsədə uyğun olardı:**

| № | Tədbirin adı | İcra müddəti | Məsul şəxslər |
|---|---|---|---|
| 1. | Məcburi auditdən yayınmanın qarşısının alınmasına dair kalendar və bukletin hazırlanması | Dekabr | Q.Bayramov<br>S.Gülməmmədov<br>V.Rəhimov<br>N.İsmayılov |
| 2. | Məcburi auditlə bağlı yeni reklam çarxının hazırlanması və KİV-də işıqlandırılması | Dekabr- Yanvar | Q.Bayramov<br>V.Rəhimov<br>İ.Zeynallı |
| 3. | Məcburi auditə dair müvafiq elanın hazırlaması və KİV-də işıqlandırılması | Dekabr | S.Gülməmmədov<br>İ.Zeynallı<br>V.Rəhimov |
| 4. | Palatada keçirilən kurslar barədə elanın hazırlaması və KİV-də işıqlandırılması | Müntəzəm | S.Gülməmmədov<br>N.Şirinova |

**İdarə rəisi S.Gülməmmədov**

**28.10.2016**